**Orucoğlu, Z.** Rəşadətli döyüş yolu // Respublika. - 2025. - 18 iyul. - **№ 146**. - S. 11.

İkinci Qarabağ müharibəsində hünər göstərib adını zəfər salnaməmizə yazan şəhid Kamran Araz oğlu Mirzəyev 1996-cı il mayın 1-də Cəlilabad rayonu, Qarğılı kəndində dünyaya göz açıb. Ermənistanın təcavüzü, əzəli yurd yeri Qarabağımızın işğalı onu çox düşündürüb. Odur ki, kənd orta məktəbi başa vuranda əlinə silah alıb düşmənlə son nəfəsə qədər döyüşüb qisas almaq olub.

Ordu sıralarında cəbhə bölgəsində xidmət edən kamran tapşırılan bütün işlərdə mərdlik, mətanət, cəsurluq nümunəsi göstərib. Həm də Kamranın Vətəninə olan sevgisi, torpağa bağlılığı zabitləri, əsgərləri heyran qoyub. Həmişə də deyib ki, təcavüzkar düşmən haqqın, ədalətin qarşısında acizdir. Tarixi yurd yerlərimiz həqiqi sahiblərinin yolunu gözləyir. Əgər Ali Baş Komandan İlham Əliyev müharibə əmrini versə, mütləq qələbə bizimlədir. Ermənistan ordumuzun qarşısında tab gətirə bilməz. Əminəm tezliklə polad biləkli, Vətən qeyrətli Azərbaycanın mərd oğulları düşmənin bütün arzularını ürəyində qoyacaq.

Mərdlik-kişilik məktəbi olan əsgərliyi başa vuran Kamran Araz oğlu evə qayıdıb. Halal zəhmətdən yapışsa da, xəyalı gecə-gündüz Qarabağda - döyüş bölgələrində dolaşıb. Vətəni darda olduğuna görə vicdanı bir an belə onu rahat qoymayıb. Qəlbində ermənilərdən intiqam, qisas almaq alovu get-gedə güclənib. Odur ki, İkinci Qarabağ savaşı başlanan kimi cəbhəyə yollanıb. 30 il əsarət altında qalan Qarabağımızın azadlığı üçün Vətənimizin qeyrətli, mətin oğullari ilə düşmənə layiqli cavab verib. 26 oktyabrda Füzuli döyüşləri zamanı Vətən torpaqlarının azadlığı naminə 24 yaşında şəhid olub. Ürəklərə köçüb ölümsüzlüyə qovuşan qəhrəman ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medallarına layiq görülüb.